# Milli Qəhrəman Mübariz İbrahimova həsr olunmuş anım tədbiri

Bu günlərdə Sumqayıt Şəhər Təhsil Şöbəsi Veteranlar Şurasının təşkilatçılığı ilə 11 nömrəli tam orta məktəbdə Azərbaycan Respublikasının Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsini yad etmək məqsədilə "Xalqın Mübariz oğlu" adlı anım mərasimi keçirildi.

Tədbirə öncə Dövlət bayrağı gətirildi, məktəbin yuxarı sinif şagirdləri Azərbaycanın Dövlət himnini ifa etdilər.

Torpaqlarımızın azadlığı uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Milli Qəhrəmanın həyat və döyüş yolundan bəhs edən videogörüntülər izlənildi.

Məktəbin direktoru Şəhla Bağırova çıxış edərək vətənpərvərlik ruhunda olan tədbirin mahiyyəti barədə iştirakçılara məlumat verdi, Milli Qəhrəman Mübariz İbrahimovun rəşadətindən söhbət açdı. Bildirdi ki, vətənimiz olduqca hiyləgər, mənfur düşmənlə üz-üzədir. Ermənilər torpaqlarımızın 20 faizindən çoxunu işğal ediblər. Xalqımıza, millətimizə qarşı sonsuz sayda vəhşiliklər törədiblər. Bu gün Azərbaycan xalqı sevinir ki, vətənimizin Mübariz kimi qeyrətli oğulları var. İnanırıq ki, belə qəhrəman oğullarımızın gücü sayəsində tezliklə torpaqlarımız yağı düşməndən azad olunacaq, xalqımız sülh içində firavan yaşayacaqdır.



Gecənin aparıcıları Aydan Əliyeva və Ramiz Əmrahov döyüşdə qəhrəmanlıq göstərmiş xalqımızın fəxri Mübariz İbrahimovun qəhrəmanlığından danışdılar. Bildirdilər ki, bu gün ürəklərdə yaşayan, adı dillər əzbəri olan, haqqında şeirlər, mahnılar yazılan, filmlər çəkilən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun əziz xatirəsi hər bir azərbaycanlının yaddaşında əbədi yaşayacaqdır.

Məktəbin X və XI sinif şagirdləri Milli Qəhrəman Mübariz İbrahimova aid səhnəcik nümayiş etdirdilər. Mübariz rolunda Rauf Qasımov, əsgər rollarında isə Kənan İsmayılzadə, Hüseynağa Süleymanov və Tamerlan Camalov oynadılar.

Şagirdlər əsgər paltarında Milli Qəhrəmanın valideynlərinə yazdığı son məktubu oxudular.

X sinif şagirdləri Nəzrin Ağaməmmədzadə, Simuzər Məmmədova, IX sinif şagirdlərindən Günel Rüstəmli, Nigar Fətəliyeva, Roza İsmayılova, Rövşən Sərdarlı, Nərmin Zöhrabova və Amaliya Əlizadə Milli Qəhrəmana həsr olunan şeirlərlə, mahnılarla onun ən yüksək zirvədə - qəhrəmanlıq zirvəsində olduğunu söylədilər.

Tədbir iştirakçıları şagirdlər qarşısında Mübarizin mübarizliyindən danışaraq onun misilsiz qəhrəmanlığının hər bir azərbaycanlı gəncə örnək olduğunu dedilər. Onlar belə tədbirlərin təhsil ocaqlarında keçirilməsini təqdirəlayiq hal kimi qiymətləndirdilər və gecənin yüksək səviyyədə hazırlanmasından məmnun olduqlarını bildirdilər.

Tədbir Milli Qəhrəman Mübariz İbrahimova həsr olunmuş filmin nümayişi ilə başa çatdı.

**Məşdi ZEYNALOV,**
*Sumqayıt Şəhər Təhsil Şöbəsi Veteranlar Şurasının sədri, qabaqcıl maarif xadimi*